ISSN:2148-2292

Akademik Tarih ve Düşünce Dergisi, 2018, 5 (18) ss. 533-544

Akademik Tarih ve Düşünce Dergisi, 2018, 5 (18) pp. 533-544

Araştırma Makalesi
Original Article

# XX Əsrin II. Yarisinda Azərbaycanda Ədəbi Proses və Söhrab Tahirin Yaradiciliği

**Nazrin Rzayeva***

**ORCID: 0000-0002-6980-4782**

## Xülasə

Söhrab Tahirin bütün yaradıcılığı onun bir sənətkar erudisisyasına malik olduğunu göstərir, ədibin istər poeziyası, istər nəsri, istərsə də publisistikası yaradıcı təfəkkürün dərinliyini göstərir. Ancaq o, öz yaradıcılıq gücünü daha çox poeziyaya yönəldib, daha şox şair kimi məşhurlaşıb və daha çox şeirləri ilə oxucu məhəbbəti qazanıb. Qələmini digər janrlarda da məharətlə işlədən Söhrab Tahiri bu janra bağlayan onun köksünün dərdiydi. Müəllifin romanları da hekayə və povestləri kimi milli azadlıq ideyaları ilə doludur. Onun bütün romanlarında Cənubi Azərbaycandakı azadlıq hərəkatı ya birbaşa, ya da dolayı yolla təsvir olunmuşdur.

**Açar sözlər:**roman,poema,poeziya,Söhrab Tahir

**Gönderme Tarihi: 20/11/2018** **Kabul Tarihi:10/12/2018**

* *Rzayeva Nəzrin Asif qızı AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun elmi işçisi, E-Posta: nazrinrzayeva88@gmail.com*

© 2018 ATDD Tüm Hakları Saklıdır

# In the second half of the XX century the literary process and the creativity of Sohrab Tahir in Azerbaijan


## Abstract

According to all creativity of Sohrab Tahir he had an artistic erudition and writer's either poetry or publicity and journalism prove that he had the depth creative thinking. Especially, he aimed more to poetry, known as a poet and earn the love of readers of his poems. Sohrab Tahir, who was also able to work in the other literrary genre, wrote more poems and the reason of it was his longing for the motherland.The author's novels are full of ideas of national liberation, such as stories and narratives. We can feel the liberation movement in South Azerbaijan in all his novels.



**Keywords:**Novel, Poem, Poetry, Sohrab Tahir

**Received Date: 20/11/2018** **Accepted Date: 10/12/2018**

## Творческий процесс в Азербайджане во второй половине XX века и творчество Сохраб Тахира

**РЕЗЮМЕ**

Все творчество Сохраба Тахира, свидетельствует о его художественной эрудиции. Будь то проза, поэзия или публицистика: в его исполнении все это отображало глубину его творческого мышления. Тем не менее его имя больше связывают с поэзией, тем самым завоевав себе признание , как поэт и любовь читателей к своими стихам . Сохраб Тахир, искусно обладавший пером и в других литературных жанрах больше прибегал к поэзии объясняя это своей тоской по родине. Его романы полны идей национального освобождения. Все его произведения повествуют или пронизаны идеей освободительного движения в Южном Азербайджане.

**Ключевые слова:** роман, поэма, поэзия, Сохраб Тахир.

**Получено: 20/11/2018** **Принято: 10/12/2018**

## Giriş

Əsrlər boyu kiçik və böyük olmasından asılı olmayaraq bütün millətlər öz idarəetmə statuslarını qazanmaq üçün çalışmışlar. Bu gün də həmin mübarizə gizli və ya aşkar şəkildə davam etdirilir. Bu fikirlər təkcə Azərbaycan və ya Şərq üçün yox bütün dünya xalqları üçün keçərlidir. İşğaldan, qeyri-müstəqillikdən əziyyət çəkən xalqlar arasında olan millətlərdən biri çox təəssüf ki, bizik – azərbaycanlılar. Tarixən maddi və mənəvi sərvətlərlə zəngin olan, torpağının altı da, üstü də "qızıl" olan Azərbaycan yadellilərin işğalına məruz qalmış, zaman-zaman müstəqilliyini itirmişdir. Ədəbiyyatımızda elə qələm sahibləri vardır ki, onların yaradıcılığında bu mövzu daha daha çox həcmə və çəkiyə malikdir. Belə ədiblərdən biri də Söhrab Tahirdir. Şairin ömrünün illəri dağılan muncuqlar kimi Arazın o tayına bu tayına səpələnmiş, İranın Astara şəhərində dünyaya göz açan Söhrab Tahir vətənimizin bu tayında-Bakıda dünyaya gözünü yummuşdur. Odur ki, vətən torpaqlarının köksünə sancılmış tikanlı məftillərin dərdi onun ürəyində daha böyük dağ olmuşdur. Elə bir dağ ki, Söhrab Tahir onu aşmaq üçün əlinə qələm almış, ağrısını, nisgilini, həsrətini kağızalara köçürmüşdür. Onu şair edən də, bəlkə də, bu ağrı, bu nisgil, bu həsrət olmuşdur.

## Söhrab Tahir

Söhrab Tahirin bütün yaradıcılığı onun bir sənətkar erudisisyasına malik olduğunu göstərir, ədibin istər poeziyası, istər nəsri, istərsə də publisistikası yaradıcı təfəkkürün dərinliyini göstərir. Ancaq o, öz yaradıcılıq gücünü daha çox poeziyaya yönəldib, daha şox şair kimi məşhurlaşıb və daha çox şeirləri ilə oxucu məhəbbəti qazanıb. Qələmini digər janrlarda da məharətlə işlədən Söhrab Tahiri bu janra bağlayan onun köksünün dərdiydi. Ədəbiyyatşünas alim Esmira Fuad Söhrab Tahir poeziyasından danışarkən yazır: ‘’Onu da bax, bu dərdlər şair elədi-Güney

dərdi, Araz ağrısı, doğma yurd nisgili, anası Nəsibədən, doğ- malarından və Azərbaycan xalqının cənub parçasından ayrılıq möhnəti..''[1]

Onun şeirlərdə söz sanki görüb-gördüklərindən, ağrılardan danışan, qəzəb nifrət, məhəbbət ifadə edən dil vahidi deyil, ağrıyan, qəzəb və nifrət püskürən, sevgi, məhəbbət daşıyan canlı varlıqdır. Sözə bu canı, bu nəfəsi verən Söhrab Tahir qəlbinin döyüntüləridir. Şair özü də şeirlərində vətən dərdini qəlbinin möhnəti kimi xarakterizə edir.

Əzəldən ürəyim elə bağlıdır,
Vətən həsrətindən sinəm dağlıdır,
Kimi sevindirir, kimi ağladır,
Bu iki sifətli möhnətim mənim [2]

Söhrab Tahirin bölünmüş Azərbaycan, susdurulmuş inqilab mövzulu şeirlərinin sətirləri həm də onun ömrünün səhifələridir.

''Vətən'' şerində şair yazır:
Bir vaxt əsgər idin, döyüşkən, igid,
İndi şeir olursan kitablarda sən [3]

Bu misraların ilk yaratdığı təəssürat budur ki, sanki lirik mən cənub mövzusunun şeirləşməsinin əleyhinədir. Ancaq əslində sətirlərin mətnaltı mənaları daha dərinlərə gedir. Söhrab Tahir parçalanmış, qandallanmış vətən haqqında şeirlərin yazılmasının yox, bütöv Azərbaycan, azadlıq uğrunda mübarizələrin sönməsindən narazıdır. Bu mübarizənin ancaq şeirdə yaşamağından, ancaq şeir misralarında aparılmağından narahatdır. Şair şeirə çevrilən yox, azadlığa çevrilən bir hərəkat arzulayır. Ona görə həmin misraların ardınca fikrini belə tamamlayır:

[1] Fuad Esmira, *Bu dünyada bir şair yaşayır*, Bakı: Nərgiz Yayinlari, 2011, 193.
[2] Tahi Sohrab, *Seçilmiş Əsərlər,* Bak: Şərq-Qərb Yayınları, 2005, 19.
[3] Sohrab, *Seçilmiş Əsərlər*, 9.

Bəs haçan döyüşdən, vuruşdan keçib
Böyük azadlığa çevriləcəksən!?

*Bu salnamədə çox şey, hətta milli azadlıq hərəkatının canlı bədii lövhələri də var. Şair onların bədii rəsmini ''Döyüş lövhələri'' şerində çızır.*

*Dükanların şüşə sözü*
*Ovulubdur, tökülübdür.*
*Vəzirliyin bər-bəzəkli*
*Qapıları sökülübdür.*
*Boz divarlar güllələnib*
*Daşlar olub qırım-qırım,*
*Güllə yeri qan hayqırır.*

Göründüyü kimi, şair abadlığın dağıdılmış, parçalanmış mənzərəsini böyük şövq və həzlə təsvir edir. Bu misralarda Söhrab Tahirin təbi zülm və əsarətə qarşı qəzəb, nifrət püskürən kütlənin üsyankar ruhundan qidalanır.

Söhrab Tahirin nəsr sahəsində olan ilk qələm təcrübəsi "Kəniz qızın hekayəsi"ndən sonuncu nəsr nümunələri – irihəcmli romanlarına qədər olan bütün əsərlərində eyni mövzunun müxtəlif aspektlərdən təqdimatını görürük. S.Tahirin nəsrə keçidinə qədər olan yaradıcı yaşamında da eyni mövzulardan söz açırdı. Onun şeir və poemalarının da əsas xətti Azərbaycan xalqının azadlıq mücadiləsinin təsvirinə yönəlmişdi, lakin müəllifin duyğu təlatümlərinin, yaşadığı hadisələrin, onu narahat edən xatirələrin çoxluğu məcburiyyətindən müəllif qələmini nəsrə çəkmişdir.

S.Tahirin ideya–məzmunca oxşar olar poema və romanları formaca və təsvir üslubuna görə fərqlənir. Bənzər hadisələrin, bənzər əhvalatların təsviri verilsə də, etiraf etmək lazımdır ki, oxucular Söhrab Tahiri şair kimi daha çox sevmiş, yazıçı Söhrabı şair Söhraba qurban vermişlər.

Yuxarıda qeyd etdik ki, S.Tahir nəsr yaradıcılığına kiçik həcmli "Kəniz qızın hekayəsi" ilə başlamışdır. Bu hekayənin nəşrindən və müəyyən qədər uğurundan ruhlanan müəllif bir-birinin ardınca "Şəlalə və qaya", "Ağac", "Yol" kimi hekayələr qələmə almışdır. İlk vaxtlarda hekayə

yaradıcılığına sıx-sıx müraciət etməməsi və bir az da bu sahədə özünə olan inamsızlığın nəticəsidir ki, S.Tahir ilk hekayələr kitabını çox gec çap etdirmişdir. "Ölümdən güclü, həyatdan uca" adlanan bu kitabda müəllif kiçik həcmli əlli beş hekayə toplamışdır. Qeyd etdiyimiz kimi, buradada əsas mövzu milli azadlıq hərəkatı olmuşdur.

"Ölümdən güclü, həyatdan uca" kitabında toplanmış hekayələrdə inqilabın ilk illərində yaşanan hadisələrə daha çox diqqət ayrılır. Ayrı-ayrı insanların sadə həyatı fonunda azadlıq məfkurəsinin əsl mahiyyəti ortaya qoyulur. Real hadisələrin təsviri S.Tahir yaradıcılığının bütün istiqamətləri üçün xarakterik olduğundan və özünü daha çox müəllifin nəsr yaradıcılığında göstərdiyindən bu hekayələrdəki təsvirlər oxucuda xüsusi rəğbət oyadır.

Azadlığın şərbətini içmiş Söhrab Tahir qısa ömürlü müstəqillikdən uzaqlaşdıqca içində dərd qübarı da böyütmüşdür. Onun yazmaq istədikləri, ürəyini didib parçalayan duyğuları zaman ötdükcə çoxalmış, şeirin sərhədlərini dağıtdığı kimi hekayənin həcminə sığmamışdır. Şeirdən hekayəyə keçən müəllif 70-ci illərdə hekayədən də üz döndərmiş, povest yaradıcılığına qədəm qoymuşdur. Sonralar ədib povestin bədii imkanlarına da sığmayacaq, roman sahəsində qələmini yoxlayacaqdı.

"İki sevgi, iki güllə"-bu simvolik ad Söhrab Tahirin ilk povestinə verilmişdir. Burada iki sevgi əsərin süjetindəki iki fərqli "aşiq-məşuqu" ifadə etməklə yanaşı, real sevgi ilə vətən sevgisini, "kişi-qadın məhəbbəti ilə, azadlıq-müstəqillik məhəbbətini ifadə edir. Elə əsərin sonunda atılan iki güllədə bu mənada simvolikdir. Obrazlara sıxılan bu güllələrin biri fərdin, tək bir şəxsin ölümünə səbəb olursa, ikinci güllə Azadıstanın, müstəqilliyin, azadlığın köksünə sıxılmış güllə kimi mənalandırılmalıdır.

"Yazda payız söhbəti", "Sevgi qurbanı", "Dənizə nişanlı qız", "Əmanət", "İki müttəhim" "Zəri" və "Fədai generalı" adlı yeddi povest (müəllif onları bir kitabda cəmləmişdir) eyni taleyi yaşayan müxtəlif insanların həyatını əks etdirir. Hadisələrin oxşarlığı müəllifin roman

yaradıcılığı üçün məşq prosesini xatırladır. Bu povestlərdən inqilab ruhunu özündə ən çox yaşadan "Fədai generalı"dır. 1945-ci ildə 21 Azər hərəkatının aparıcı şəxsiyyətlərindən olan general Qulam Yəhyanın fəaliyyətinə həsr olunmuş "Fədai generalı" povesti müəllifin şəxsən şahidi olduğu hadisələr əsasında qələmə alınmışdır. Vaxtilə Şimali Azərbaycanda yaşamış, sonralar isə Cənuba köçüb milli azadlıq mübarizəsinin fəal üzvlərindən birinə çevrilən Qulam Yəhyanın çox maraqlı bədii obrazını yaradan müəllifin ən böyük uğuru onunla bağlıdır ki, əsərdə o, bütünlükdə Təbrizdə və Cənubi Azərbaycanın digər şəhərlərində "21 Azər" hərəkatını çox təbii və inandırıcı səhnələrlə qələmə alıb.

Müəllifin romanları da hekayə və povestləri kimi milli azadlıq ideyaları ilə doludur. Onun bütün romanlarında Cənubi Azərbaycandakı azadlıq hərəkatı ya birbaşa, ya da dolayı yolla təsvir olunmuşdur. "Qonşu qızın məktubları" romanı müəyyən qədər saf sevgi tərənnümü kimi görünsə də, burada da inqilabın təsirləri aydın hiss olunur. Xüsusi olaraq, romanın ikinci hissəsi inqilabçıların fəaliyyətinə həsr olunmuşdur. Romanda cərəyan edən hadisələr bütünlükdə İranda gedən ictimai-siyasi hadisələr fonunda qələmə alınmışdır. Əsərdə real tarixi faktlar bədii don geydirilərək təqdim olunmuşdur. İranda yaşayan azərbaycanlıların azadlıq mübarizəsinin yenidən İranı çalxalaması və buna qarşılıq şah rejiminin getdikcə daha da qəddarlaşması fonunda amansızlıqla üz-üzə qalan xalqın acıları da əsərdə əks olunur.

Söhrab Tahirin "İki dəfə yox olmuş adam" romanı da milli qürur, dil, milli kimlik və s. ifadə tərzinə görə fərqlidir.

Ardıcıl şəkildə roman yaradıcılığında kitablarını çap etdirən ədibin "Sevgisində itən qız" romanı lirik-psixoloji üslubu xatırlatmasına baxmayaraq, yenə də inqilab və inqilabdan sonrakı həyatın təsvirinə həsr olunmuşdur.

Romanda sovet qoşunlarının İrana girməsi, ölkədə siyasi vəziyyət, siyasi qruplaşmalar arasında hakimiyyətd uğrunda gedən mübarizə, xarici

dövlətlərinin siyasətinin İranda fəallaşmasına əhəmiyyətli dərəcədə yer verilmişdir. Belə bir məqamda Müxtəsərzadə, Seyidzadə, Qəvamüssəltənə və başqaları Pişəvərini öz tərəflərinə çəkməyə çalışır, onun bacarıq və təcrübəsindən istifadə etməyə səy göstərirlər. Əsərin qəhrəmanının siyasət dəllalı Müxtəsərzadəyə dediyi sözlər onun mübariz ruhunu, ölməz azadlıq eşqini aydınlaşdırır: “Mən hakim olmaq üçün mübarizə aparmıram, azadlıq ədalət və həqiqət yolu mənim mübarizə yolumdur. Nə qədər ki, bu xalqın istədiyi bir hökumət iş başına gəlməyib, onun istəklərini həyata keçirməyib, mən öz mübarizəmdə dayanmayacağam”.

Milli azadlıq ideologiyasının Söhrab Tahir nəsrində ən bariz nümunəsi “Sonuncu şah” romanında qarşımıza çıxır. Ən kiçik olayların təsvirində də, müəllifin kiçik obrazlara münasibətində, şahın, siyasi liderlərin, inqilab rəhbərlərinin bədii portretlərində də, məhkəmə, döyüş, mitinq səhnələrində də əsərin alt qatına hopmuş azərbaycançılıq duyulur.

“Sonuncu şah” romanında İranın 50 illik tarixi ustalıqla qələmə alınmışdır, amma əsər təkcə tarixi mahiyyət daşımır. Bu əsər həm də İran kimliyi ilə Azərbaycan kimliyinin müqayisəsi cəhətdən də səciyyəvidir.
Burada obrazı bütünlüklə despotizmi ifadə etdiyi halda, Behzad, Məhtab, Malik kimi obrazlar isə xalqın tipikləşdirilmiş obrazıdır.

“O gecə saat 2-ə qədər şah azacıq kefli halda özü də bilmədən qisas andını Telaya danışdı. Tela əl-ayağa düşdü. Onu dəhşət bürüdü, şahın ayaqlarına yıxıldı, yalvardı, ağladı, arada dedi:

- Əlahəzrət, o üç uşağına ürəyin yansın. Onların günahı nədir. Onlar nə bilsin ki, dünya belə qanlı dünyadır.
- Üç uşaq yox, dörd uşaq, - dedi və bundan sonra onlar Urmiyə kişmiş arağının təsiri altında qucaqlaşıb ağladılar.

Tela göz yaşları içində və biçimli ağzı azacıq əyilmiş halda, şahın qolları arasında təkrar etdi:

- Uşaqların günahı yoxdur....

Şah əcayib şəklə düşən sifətini Telaya tərəf döndərib pıçıltı ilə dedi:

- Onlar da mənim düşmənim olacaqlar. Hansı övlad atasına vəfalı olub ki, mənimkilər də olsun.

- Bəs mələkə?

Mələkə də onların biridir. Hamı məni dağıdır, ölkəni dağıdır.” [4]

Romanın əsas qəhrəmanı Behzadın mübarizəsi, milli savaşda fərdi keyfiyyətləri diqqət çəkir. Behzad Azərbaycançılıq savaşına, azadlıq mübarizəsinə kəfəni əynində çıxır. Elə Behzad kimi digər inqilabçılar da ölümü gözə alaraq bu mübarizəyə qoşulurlar.

“Jalə meydanı bir daha aşıb daşırdı. O qan dəryasına, qanla dolu bir ləyənə bənzəyirdi. Bu qan tez-tez titrəyib daşıb calanırdı. Çoxu teleqraf ağaclarına dırmaşmışdı, damlara çıxmışdı, milyonların dalğa vurmağına yuxarıdan baxırdı. Əsgərlər və zabitlər saralmışdılar. Əsgərlərin bəziləri isə silahını qucaqlayıb ağlayırdı.

Maliklə Firiştə bu mitinqdə yan-yana dayanmışdılar. Onlar kəfən geyib ilk sıralarda hərəkət edənlərdən idilər. İki cərgə arxada idilər. Kəfən geyənlərin asta addımları qarşısında tanklar, əsgərlər geri çəkilirdi. Rza öz dostu Maliki axtarsa da, onu tapa bilmirdi. Teleqraf ağacına söykənib bu əzəməti heyrətlə nəzərdən keçirən Malik Rzanı uzaqdan görmüşdü. Ancaq ona nə səs çatırdı, nə ün. O, tez-tez saata baxırdı. Buradan o, Şah məscidinə tərəf yola düşəcəkdi. O, bu gündə məscidin qabağından keçib getməliydi. Birdən Məhtab onu orada gözləyə bilərdi. Məhtab ona demişdi ki, hər cümə axşamı mən Behzadla Şah məscidinin qabağında görüşməliyəm. Bizi görmək istəsən oraya gəl. Ancaq ehtiyatı əldən vermə. Məlik oraya gedirdi, ancaq bilirdi ki, dünən Çiniqablar mağazası üstündəki evdə 6 nəfər qətlə yetirilmişdi. Onlardan ikisi də Mətləblə Behzad idi.” (Söhrab Tahir Azərazər. Sonuncu Şah. [5]

---

[4] Tahir Sohrab, *Sonuncu Şah*, Bakı: Ağrıdağ,Yayınları, 2001, 459.

[5] Sohrab, *Sonuncu Şah,* 497.

## Nəticə

İstər "Sonuncu şah", istər digər bütün nəsr yaradıcılığı ilə S.Tahir azadlıq yazıçısıdır. O, bütöv Azərbaycan eşqi ilə yaşasa da, kiçicik qalmış Şimalı Azərbaycanı da işğal altında gördü. Söhrab Tahirin yaradıcılığında yer alan bütöv Azərbaycan amalına tezliklə nail olacağımıza inanırıq, ona da inanırıq ki, bütöv Azərbaycan bundan sonra təxəyyül ədəbiyyatının məhsulu yox, real tarixi romanın mövzusu olacaq.

## Qaynaqlar


FUAD, E,. *Bu dünyada bir şair yaşayır-Söhrab Tahir adında // Sözə Sevdalılar: Ədəbi Düşüncələ*r, I kitab, Bakı : Nərgiz Yayınları, 2011.

TAHIR, S,. Seçilmiş Əsərləri, Bakı: Şərq-Qərb Yayınları, 2005,

TAHIR, S,. *Sonuncu Şah*., Bakı: Ağrıdağ Yayınları, 2001.